**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi

Əmr 036

«06» mart 2000-cı il

Sədr _______________ H. Babayev

# İnvestisiya fondunun nizamnamə kapitalının formalaşdırılması

# Q A Y D A L A R I

## I.Ümumi müddəalar

1.1. Bu Qaydalar «İnvestisiya fondları haqqında», «Qiymətli kağızlar haqqında», «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunlarına, «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2000-ci il tarixli 245 nömrəli Fərmanına və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnamənin tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar investisiya fondunun səhmlərinin emissiya prospektinə tələbləri və onun nizamnamə kapitalının formalaşdırılması qaydalarını müəyyən edir.

## II. İnvestisiya fondunun nizamnamə kapitalının minimum məbləği və investisiya fondu təsis edilərkən onun nizamnamə kapitalının formalaşmasının xüsusiyyətləri

2.1. İnvestisiya fondunun nizamnamə kapitalının minimum məbləği 5 000 000 000 (beş milyard) manat müəyyən edilir və bu məbləğin 30 %-i təsisçilər tərəfindən formalaşdırılır. Təsisçilər malik olduğu səhmlərin iki il ərzində öz mülkiyyətində saxlanmasını təmin etməlidirlər.

2.2. İnvestisiya fondu öz fəaliyyətini müəyyən edilmiş qaydada lisenziya aldıqdan və səhmlərinin buraxılışını dövlət qeydiyyatından keçirdikdən sonra həyata keçirə bilər.

2.3. İnvestisiya fondunun səhmlərinin emissiya prospektində «Azərbaycan Respublikası ərazisində emissiya qiymətli kağızlarının buraxılması və qeydiyyatı haqqında» Əsasnamə də nəzərdə tutulan müddəalara əlavə olaraq aşağıdakılar göstərilməlidir:

- fəaliyyət predmeti;

- təsis tarixi;

- investisiya fondunun lisenziyasının nömrəsi, tarixi və qüvvədə olma müddəti;
- investisiya fondunun investisiya bəyannaməsinin məzmunu;
- investisiya fondunun, fondun müdiriyyəti (müdiri), depozitarisi və reyestrsaxlayıcısı ilə bağladığı müqavilələrin tərəflərin funksiyala-rını, məsuliyyətlərini, qarşılıqlı hüquq və vəzifələrini, müqavilələrin qüvvədə olan müddətlərini, xidmətlərin haqqının və mükafatların ödənilməsinin həcmlərini və qaydalarını əhatə edən əsas şərtləri;

- açıq investisiya fondu üçün səhmlərin geri satın alınması halları üçün hesaba alma dövrünün müddəti;

2.4. İnvestisiya fondu müvafiq lisenziya almadan fəaliyyət göstərə bilməz.

## III. İnvestisiya fondunun nizamnamə kapitalının məbləğinin dəyişdirilməsi

3.1. İnvestisiya fondunun nizamnamə kapitalının məbləğinin artırılması və ya azaldılması səhmdarların ümumi yığıncağının qərarı əsasında həyata keçirilir.

3.2. Açıq investisiya fondu geri satın alınmış səhmləri alındığı tarixdən bir il ərzində yenidən yerləşdirə bilmədiyi halda bu barədə səhmdarların ümumi yığıncağı çağırılır və müvafiq qərar qəbul olunur.

3.3. İnvestisiya fondunun nizamnamə kapitalının məbləğinin artırılması barədə qərar qəbul edildikdə bu Qaydaların 2.3-cü bəndində göstərilən məlumatlardan başqa səhmlərin emissiya prospektinə aşağıda-kılar da əlavə olunmalıdır:

- investisiya fondunun nizamnamə kapitalının artırılması barədə qərar qəbul edilərkən səsvermə iştirakçılarının sayı və səsvermənin nəticəsi;

- emissiyadan əlavə maliyyə vəsaitlərinin əldə edilməsi proqnozlaş- dırılırsa bu ehtiyatlardan istifadə olunması məqsədi;

- təkrar emissiya olduğu və ya digər təşkilati-hüquqi formalı hüquqi şəxsin səhmdar cəmiyyətə çevrildiyi halda emissiya prospektinə həmçinin:

- təsisçilərin adları;

- investisiya fondunun rəhbər orqanlarının onun təsis sənədlərində göstərilən strukturu, o cümlədən investisiya fondunun müşahidə şurasının, müdiriyyətin (müdirin) səhmlərin buraxılması haqqında qərar qəbul edilən zaman oxşar vəzifələri yerinə yetirən idarəetmə orqanlarının bütün üzvlərinin siyahısı, onların hər bir üzvünün soyadını, adını, atasının adını, hazırda tutduğu bütün vəzifələrini, həmçinin investisiya fondunun nizamnamə kapitalında şəxsən onun iştirakçısı olan şəxslərin paylarını göstərməklə;
- son tamamlanmış maliyyə ili üçün müəyyən edilmiş formalar üzrə investisiya fondunun auditdən keçən (özəlləşdiriləcək dövlət müəssisələri istisna olmaqla)

mühasibat balansı (banklardan ibarət olan investisiya fondu üçün ikinci dərəcə hesablar üzrə mühasibat balansı) və fəaliyyətinin maliyyə nəticələri haqqında hesabatlar;

3.4. İnvestisiya fondunun nizamnamə kapitalı artırıldıqda səhmdar-ların yeni emissiya edilən səhmlərin alınmasında üstünlük hüquqları yoxdur.

## IV. İnvestisiya fondunun nizamnamə kapitalında dəyişikliklərin qeydə alınması

4.1. İnvestisiya fondunun nizamnamə kapitalının məbləğinin dəyişdirilməsi barədə fondun səhmdarlarının ümumi yığıncağının qərarı protokolla rəsmiləşdirilir.
4.2. Fondun nizamnamə kapitalının məbləğinin dəyişdirilməsi barədə protokolda aşağıdakılar hökmən göstərilməlidir:

- investisiya fondunun tam adı və hüquqi ünvanı;

- fondun nizamnamə kapitalının məbləği;

- fondun fəaliyyətinin məqsədi və predmeti;

- vəzifəli şəxslərin siyahısı;

- indiyədək buraxılmış səhmlərin yerləşdirilməsi barədə məlumat;

- nizamnamə kapitalının məbləğinin dəyişdirilməsinin səbəbi və məqsədi;

- əlavə buraxılan və ya dövriyyədən çıxarılan səhmlərin miqdarı, ümumi məbləği, nominal dəyəri, seriyaları, sıra nömrələri;

- səsvermə iştirakçılarının sayı və səsvermənin nəticəsi;

- dividendlərin ödənməsi qaydası (nizamnamə kapitalının məbləği artırıldığı halda);

- səhmlərə abunə yazılışının müddəti və qaydası;

- səhmlərin satın alınması üçün vəsaitin ödəndiyi yer və vaxt.

4.3. İnvestisiya fondunun nizamnamə kapitalının məbləğinin dəyiş-dirilməsi barədə qərar, səhmlərinin emissiya prospekti və səhmləri müvafiq qaydada Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilməlidir.

## V. Məsuliyyət

5.1. Bu qaydaları pozanlar Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## VI. Qüvvəyə minməsi qaydası

6.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minirlər.